# Tülkünün göz yaşları

## Azərbaycan əsgəri Zori Balayanı da ağlatdı

**Daşnak ideoloqu, qələmi də, əli kimi, türk cocuqlarının qanına batan Zori Balayanı xalqımız yaxşı tanıyır. O, bədnam "Ocaq" kitabı ilə beynini zəhərlədiyi erməniləri vandalizmlə silahlandıran əsas ideoloqdur.**

O, 80-ci illərin sonunda Dağlıq Qarabağda başlayan etnik qarşıdurmaları öz "əsərləri" ilə qızışdıran təhlükəli düşməndir. Bir vaxtlar Azərbaycanın İnterpol xətti ilə axtarışa verdiyi bu "millətçi"nin "Ocaq" əsəri bütövlükdə Azərbaycan əleyhinə yönəlib. 1980-ci illərin əvvəllərində yazılan "Ocaq"da Zori Balayan tarixi saxtalaşdıraraq, Qarabağın və Naxçıvanın qədim erməni torpağı olduğunu iddia edib. Həmçinin kitabda o, türkləri və azərbaycanlıları həm Rusiyanın, həm də Ermənistanın düşməni elan edib.

Məhz 1988-ci illərdən başlayan Azərbaycanda həyata keçirilən vandalizm aktları da onun ideologiyasının nəticəsidir. Bu, "millətçi erməni" ideoloqu, əli və qələmi qana batan, türk cocuğunun amansızcasına qətlə yetirilməsindən zövq alan həmin Balayandır ki, kitabında yazır: "...Biz Xaçaturla ələ



keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq..."

Qarabağdakı son döyüşlər, Azərbaycan Ordusunun davamlı qələbələri bütün Ermənistanı yasa bürüyüb. Ermənilərin hamısı ağlayır, acılar yaşayır. O cümlədən rəzil düşmən Zori Balayan da böyük matəm içindədir. Onun amansız, qəddar ideologiyası artıq iflasa uğrayıb. Bu ideologiya nə qədər insanın fəlakətinə çevrilib.

Yad torpaqlarda döyüşərək məhv edilən erməni əsgərlərinin hər gün keçirilən çoxsaylı dəfn mərasimlərində Zori Balayan sinəsinə döyüb ağlayır. İndi erməni anaları övladlarının ölümünə görə əsas təqsirkarlardan olan bu mənfur, qaniçən millətçi daşnakdan hesab sormalıdırlar. Çünki Zori Balayan Azərbaycandan çox, məhz erməni xalqının, əsasən də erməni analarının düşməni, erməni gənclərinin qatilidir. Bu hesab sorulmalıdır və sorulacaq!

Bəli, bu gün Azərbaycan əsgəri illər öncə Xocalıda türk cocuğunun zülmlə can verməsindən "ruhu qürurlanan", əliqanlı daşnak ideoloqunu rəzil duruma salıb beləcə ağladır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.-8 oktyabr.- S.12.